**UOT:** 327.
**KBT:** 65.248
**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.44-58
**MJ №** 209

# Beynəlxalq münasibətlər diskursunda postkolonializm

**Nərgiz Nağıyeva***

**Abstrakt.** Tarixə müraciət həmişə beynəlxalq münasibətləri dərk etmək üçün mühüm alət olub və bu tendensiya bu gün də aktuallığını qoruyub saxlayır. Lakin əvvəllər tədqiqatçılar əsasən ayrı-ayrı hadisələrə və onların mümkün şərhlərinə diqqət yetirirdilərsə, indi əsas diqqət sistemlərin tarixi faktorların müəyyənləşdirilməsinə və bu faktorların müasir beynəlxalq münasibətlərdə əks etdirilməsinə yönəldilmişdir. Məhz buna görə də müstəmləkə əlaqələrinin müasir beynəlxalq münasibətlər sisteminə tədricən təkamülünə diqqət yetirən postkolonial yanaşma xüsusi əhəmiyyət kəsb etmişdir. Postkolonializmi həm mahiyyət, həm də tarixi bir proses olaraq anlamaq üçün bir çox termini dəqiqləşdirməyə ehtiyac var. Belə ki, bir çox tədqiqatlarda postkolonializm məfhumunun açıqlanmasında kolonializm, postkolonializm, Birinci Dünya, Üçüncü Dünya, metropoliya, globalizm, post-modernizm kimi anlayışlardan istifadə olunur. Bu anlayışlar içərisində bir-birinə zidd olmalarına baxmayaraq elə bir-birinin davamı kimi görünən kolonilaizm və postkolonializm terminləri mühüm yer tutur. Məqalədə bu anlayışların bir neçəsinin izahına yer verilmişdir. Postkolonializm anlayışının inkişafına və nəzəri tarixçəsinə baxıldığında bu anlayışın ilk dəfə Edvard Səid tərəfindən “Orientalism” adlı əsərində istifadə olunduğu qənaətinə gəlmək olar. Edvar Səidin “Orientalism” (1978) [Said, 1978] əsərində kolonializm və imperializm anlayışlarının bir çox törəmə terminləri istifadə olunsa da bu əsərdə poskolonializm sözünə bir dəfə də olsun rast gəlinmir. Postkolonializmin bir anlayış olaraq möhkəmlənməsində Edvard Səidin tədqiqatı qədər mühüm əhəmiyyətə ilk dəfə hindistanlı marksist tarixçilər tərəfindən 1982-ci ildə inkişaf etdirilmiş “Subaltern Studies”-dir. Beləliklə də, postkolonializm hələ adlandırılma baxımından son halını almasa da 1989-cu ildə dərc olunmuş “The Empire Writes Back” [Ashcroft, Griffiths, & Tiffin, 1989] adlı kitab sayəsində bu gün həm termin həm də nəzəri qavram olaraq müasir elmi dairələrdə istifadə olunmaqdadır.

**Açar sözlər:** kolonializm, neokolonializm, postkolonializm, subaltern, müstəmləkə

---

* Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,
Bakı Dövlət Universitetinin dosenti; Bakı, Azərbaycan
E-mail: nargiz_nagiyeva@mail.ru
https://orcid.org/0009-0001-1205-5864

**Məqaləyə istinad:** Nağıyeva, N. [2024] Beynəlxalq münasibətlər diskursunda postkolonializm. *“Metafizika” jurnalı, 7(2),* səh.44-58.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.44-58

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.02.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 10.03.2024*
*Çapa qəbul edilmişdir: 29.04.2024*

## 1.Giriş

Müasir italyan tədqiqatçı Antonio Qramşi (1891-1937) tərəfindən subaltern anlayışı elmə daxil edildi ki, bu termin “Üçüncü dünya”, sonralar isə “post-kolonial” termininə bərabər tutuldu. Hindistanlı tarixçi Ranajit Guhanın (1923-2023) “Subaltern Studies: Writings on South Asian History and Society” [Guha, 1995, Vol.1, 241p] əsəri isə 1981-ci ildə dərc olunmuşdur.

Edvard Səidin əsərindən üç il sonra dərc edilən bu əsərə oxşar Hindistanda bir çox tədqiqatlar qələmə alındı. Dipeş Chakrabarty (1948-), Homi K.Bhabha (1949-), Chakravorty Spivakın (1942-) tədqiqatları Guhanın bu tədqiqatının davamıdır.

Koloniyalar bizim eradan əvvəl meydana çıxıb və baxmayaraq ki, bu sözün orijinal mənası o zaman fərqli idi. Koloniya latın sözü olub “məskunlaşma yeri” deməkdir. Bəzi, adətən inkişaf etmiş sivilizasiyadan olan təşəbbüskar insanlar, köhnə yaşayış yeri nisbətən çox məskunlaşdıqda və ya artıq həyat üçün kifayət qədər resurslara malik olmadıqda, yeni torpaqlara köçürdülər. İbtidai insanlar qədim dövrlərdə, ovçu-toplayıcı təsərrüfat üsulu mərhələsində yeni torpaqları mənimsəyərək, sərvətsiz ərazilərdən həmin ərazilərə, tükənmiş torpaqlardan toxunulmamış torpaqlara, otlaqlara köç edirdi.

Sivilizasiyalar dövründə köçürmə prosesi, daha doğrusu, müstəmləkələşdirmə prosesinin planetə daha geniş yayılması yeni təkan aldı. Koloniyalar misirlilər, finikiyalılar, yunanlar və romalılar tərəfindən yaradılmışdır. İnsanların köçdüyü və mövcudluğunu davam etdirən, yeni torpaqları idarə edən əsas ərazi metropolis (yunan dilindən “paytaxt”) adlanırdı. Koloniyaların mövcudluğunun ilk dövrü quldarlıq dövründə (e.ə. 250-ci ildən eramızın 480-ci ilə qədər) olmuşdur. Adı çəkilən xalqların nümayəndələrinin əkinçilik və ya ticarətlə məşğul olmaq məqsədi ilə metropoldan uzaqda yerləşən yeni torpaqlarda yaşayış məntəqələri salması ilə xarakterizə olunur. Bu cür koloniyalar, əlbəttə ki, sporadik birləşmələr idi, baxmayaraq ki, onların hər biri əsrlər boyu mövcud ola bilər və nisbətən müstəqil və hətta ana ölkədən təcrid olunmuş ola bilərdi.

Dənizçiliyin və naviqasiya sistmenin inkişafı Orta əsrlərdə koloniyaların kəşfinə yeni təkan verdi. Burada İtaliya şəhər-respublikaları xüsusilə seçilirdi - Genuya və Venesiya, onların arasında daim təsir dairələri uğrunda mübarizə gedirdi. Tədricən kapitalist cəmiyyətinin formalaşması və Böyük Coğrafi Kəşflərlə bağlı müstəmləkələrin mövcudluğunun ikinci mərhələsi formalaşdı. Avropalılar Amerikanı kəşf edən kimi orada məskunlaşmağa, qızıl və digər maddi sərvətləri Avropaya daşımağa, yerli dövlətləri və xalqları özünə tabe etməyə başladılar. [Бжезинский, 2012. c.18]

## 2.Kolonizasiya-müstəmləkələşdirmə

Qədim dövrdə müstəmləkəçilik ilkin olaraq doğma ölkədə taxıl çatışmazlığı ilə bağlı olsa da, daha sonralar ticarət əlaqələrinin qurulması, təsərrüfat üçün yararlı olan yeni torpaqlar zəbt olunması problemlərinin həlli ilə əlaqəli idi. Koloniyalaşdırma birbaşa siyasi təsir dairəsinin genişləndirilməsi ilə əlaqəli deyildi. (o, xüsusilə e.ə. V əsrdə Afinanın müstəmləkəçilik siyasəti və ellinizm dövrünün kolonializmi ilə əlaqəlidir). Kolonializm prosesi e.ə. 2-ci minillikdə başlamış və müxtəlif fasilələrlə Erkən Roma imperiyası dövrünə qədər davam etmişdir. Finikiyalıların koloniyalaşdırma siyasəti e.ə. IX-VII əsrlərdə Kiprdə, Afrikanın şimalında (Karfagen), Sicilyanın qərbində və İspanıyanın cənubunda (Qades, indiki Kadis) ticarət mərkəzlərinin qurulması ilə əlaqəli idi. Bu ölkələr arasında mis, dəmir, qurğuşun ticarəti gedirdi. Finikiyalıların eləcə də, digər dövlətlərin müstəmləkəçilik siyasətinin əsasını məhz qul ticarəti təşkil edirdi. Eramızdan 1200 il əvvəl xalqların Aralıq dənizinə köçü zamanı yunanlar Egey dənizinin adalarında və Kiçik Asiyanın qərbində məskunlaşdılar. Əvvəlcə Fessaliyadan miqrasiya edən axeylər Lesbosda, Tenedos və Kiçik Asiyanın şimal-qərbində məskunlaşdılar. O zamandan etibarən onlar eoloylar adlanmağa başladılar. Daha sonra isə Miletə qədər gedib çıxaraq daha böyük ərazilərdə məskunlaşdılar. Nəhayət, doriyalılar Kriti, Rodosu və Kiçik Asiyanın cənub-qərb hissəsini müstəmləkələşdirdilər. Kiçik Asiya yunanları arasında əsas yeri ioniyalar tutmağa başladılar. Yunan iqtisadiyyatının və mədəniyyətinin ilkin çiçəklənmə dövrü də məhz onların adı ilə bağlıdır. Eramızdan əvvəl, VIII-VI əsrlərdə Yunanıstandan qitə və adalarda olan şəhərlərin çoxunda koloniyalar ləğv edilib Aralıq və Qara dəniz sahilləri boyu yerləşdirildi. Baxmayaraq ki, müstəmləkələşdirmə siyasəti spontan olaraq gedirdi, bu mərhələnin sonuna yaxın artıq yunan müstəmləkələri hər iki dənizi əhatə edirdi. Müstəmləkələşdirmə səbəbləri əvvəcə iqtisadi xarakter daşıyırdı: əhalinin köçürülməsi, təsərrüfatın zəif məhsuldarlığı, torpaq çatışmazlığı və s. Buraya siyasi səbəbləri də əlavə etmək olar. Daxili siyasi mübarizənin güclənməsi məğlub partiyaların güc yolu ilə dövlətdən çıxarılması və s. [Гладкий, Том 1. с.347-348].

Yeni koloniyalar daha çox torpaq mülkiyyəti xarakteri daşıyırdı. Amma bəzən birinci yerdə metropoliyanın ticari maraqları dayanırdı. Böyük yunan kolonizasiyası 3 istiqamətdə gedirdi: 1-ci qərb istiqamətində (Sicilya, cənubi İtaliya, İlliriya sahilləri, cənubi Qalliya və İberiya) daha məhşur müstəmləkələr - Kumı, Tarent, Sibaris, Kroton, Naksos, Sirakuza, Massiliya və s. idi. 2-ci şimal-şərq istiqamətində, III isə şimal koloniyalar idi. Ən çox koloniyalar Qara dəniz sahilləri boyunca Miletə aid idi. Koloniyaların qurulmasında əsas metropol dövlətin siyasi xadimləri iştirak edirdilər ki, onlar da torpaqların bölüşdürülməsi və koloniyalın idarə olunması ilə məşğuldurlar. Daha sonra bu koloniyalar metropoliyaların

mədəniyyətlərindən yararlanırdılar. Əhali çox vaxt tək metropoldan yox, digər yerlərdən də gəlib məskunlaşırdılar. Koloniyalar müstəqil şəhər dövlət statusu alırdılar. Metropoliya ilə onları müqəddəs bağlar bir-birinə bağlayırdı. Ümumi inanclar, ortaq mədəniyyət və s. Bundan əlavə, onları çox vaxt iqtisadi əlaqələr bir-birinə bağlayırdı. Kolonizatorlar koloniyaların əhalisini ya istismar edirdilər ya da qovurdular. Koloniyalardan buğda, qul, mal-qara, balıq, duz, tikinti məhsulları, ədviyyat, papirus, fil sümüyü daşıyırdılar, metropoliyalar eləcə də keramika, metal əl işləri, parça, yağ və şərab ixrac edirdilər. Koloniyalaşdırma Yunanıstanın özündə ciddi sosial-iqtisadi dəyişikliklərə səbəb olurdu. Şəhərlər iqtisadi mərkəzlərə çevrilirdi. Sənətkarlıq, dənizçilik, ticarət sürətlə inkişaf edirdi. Qohumluq əlaqələri zəifləyirdi. Şəhərlər quldarlıq mərkəzlərinə çevrilirdi. Geniş ticarət əlaqələri mədəniyyətin uğurlu inkişafına şərait yaradırdı. Beləliklə də, sosial-iqtisadi və mədəni inkişaf koloniyalarda daha sürətli gedirdi. E.ə V əsrin I yarısında Afina dəniz ittifaqının üzvlərinə aid olan ərazilərdə Afinanın müttəfiqləri üzərində siyasi hakimiyyətinin möhkəmləndirilməsi üçün klerixuy yaradıldı. Onlar hərbi şəhərciklər idi-müstəqil şəhər dövlət statusuna malik deyildi, əhalisi isə Afina vətəndaşlığını qoruyub saxlayırdılar. Klerixuy yaratmaqda digər əsas məqsəd isə kasıb afinanıların mövqeyinin zəiflədilməsi idi. Məşhur klerixuylar- Samosda, Eqində, Lesbosda idi. E.ə 404-cü ildə Afina onları itirdi, 386-cı ildə isə Lemnosda, İmbrosda və Skirosdakı köhnə klerixuylarını geri qaytara bildi. Afina klerixuyları kimi Makedoniyalı İsgəndər işğal olunmuş Asiya ərazisində öz hakimiyyətini möhkəmləndirmək üçün hərbi məskunlaşmalar yaratmışdır. E.ə IV əsrdə Roma İtaliyanın zəbt edilməsi prosesində vətəndaş koloniyaları yaratmağa başladı ki, əvvəlcə sahil ərazilərdə sonra isə yarımadanın içərilərinə doğru öz hakimiyyətini möhkəmləndirsin. Roma koloniyaları müstəqil administrativ vahidlər deyildilər, onlar Roma idarəçilik sisteminin tərkibinə daxil idilər və Romanın İtaliya yarımadasında hakimiyyət uğrunda mübarizəsinə ciddi dəstək idilər. Qrakxların zamanından isə Roma İtaliyadan kənar ərazilərdə də koloniyalara sahib olmağa başladılar. Kolonizasiyanın inkişafı Yuli Sezarın və Oktavian Avqustun dövründə də gedirdi. Erkən imperiya dövründə Romanın müstəmləkəçilik siyasəti hakim sinifə əyalətlərdə möhkəm sosial əsas yaratmaqda kömək edir. Müxtəlif tipli idarəçiliyə malik olan şəhərlər arasında Roma koloniyaları birinci yeri tuturdu. Daha sonrakı dövrdə isə koloniyalar dağılmağa və öz əhəmiyyətini itirməyə başlayır.

Koloniya - kolonizasiya prosesində Aralıq dənizi və Qara dəniz sahillərində yunan vətəndaşlarından ibarət olan məskunlaşma hesab olunurdu. Yunan koloniyaları metropoliyadan müstəqil idilər. Roma koloniyalarının vətəndaşları tamhüquqlu Roma vətəndaşları idilər. Respublika dövründə koloniyalar Latsiya sərhədlərində daha sonralar isə

İtaliya sərhədlərindən kənarlarda formalaşmağa başladı. Əsas məqsəd Romanın işğal etdiyi ərazilərdə öz hərbi hakimiyyətini qurmaq və əhalisini özünə tabe etməkdən ibarətdir. Koloniyalarda kəndlilər, henəyi olmayan əhali və müharibə veteranları məskunlaşırdılar. Artıq erkən dövrlərdən bir çox koloniyaların məqsədi torpağı olmayan kəndlilər arasında torpaqların bölüşdürülməsi məqsədi güdürdü ki, bununla da böyük mülkədarlar üçün təhlükəli olan aqrar qanunları zəiflətmək üçün mübarizə aparırdılar. Koloniyalar hüquqi cəhətdən müstəqil idilər və Romada olduğu kimi administrativ idarəçilik quruluşuna malik idilər. Sezarın hakimiyyəti dövründən bir çox koloniyaların əyalətlərdə əsası qoyuldu və romalıların iqtisadi, siyasi, mədəni təsiri izləri buradan uzun müddət silinmədi. [Гладкий, Том 1. с.347-348]

Kolonilaizm XV əsrdən bir sistem olaraq - ilk coğrafi kəşflərdən başlayıb-inhisarçı kapitalizm zamanında inkişaf etdi. İlk müstəmləkə imperiyasını Portuqaliya və İspaniya təşkil etmişdilər. Portuqaliya sonradan müstəmləkələrini əlində saxlaya bilməmişdi. XVI əsrin ortaları üçün İspaniya Mərkəzi və Cənub Amerikada böyük müstəmləkə imperiyası yaratmışdı. Portuqaliya və İspaniyadan başqa Hollandiya, İngiltərə, Fransa, Almaniya, İsveç və başqa ölkələr də Okeandan o tərəfdə müstəmləkə torpaqları əldə etmişdilər. Onlar müstəmləkələri açıqdan-açığa soyub talayırdılar. Təkcə İspaniya 1521-1660-cı illərdə Amerikadan 18 min ton gümüş və 200 ton qızıl gətirmişdi. XVIII əsrdə Hindistan, İndoneziya və Avstraliya torpaqları tamamilə müstəmləkəyə çevrilmişdilər.

Müstəmləkəçilik tarixini ümumiyyətlə dörd dövrə bölmək olar. Birincisi, Avropanın 1763-cü ildə Paris müqaviləsinə qədər xaricə genişlənməsinə başladığı dövr, ikincisi, Birləşmiş Almaniyanın meydana çıxdığı 1763-cü ildən 1870-ci illərin ortalarına qədərki, üçüncüsü isə 1875-1944-cü illər arası müstəmləkə imperiyaları qurulduğu və mövcudluğunu qoruduğu dövrlərdr.1800-1914-cü illər arasında bəşəriyyət sözün əsl mənasında qəddar bir işğal və istismar yaşadı. Bu mərhələlərin əvvəlində Portuqaliya və İspaniya, daha sonra Fransa və Hollandiya və nəhayət İngiltərə ön plana çıxdı. İkinci mərhələdə Britaniyanın üstünlüyü üzə çıxdı, üçüncü mərhələdə isə XX əsrdə ingilis, fransız, italyan, alman, rus, yapon və amerikan maraqları arasında rəqabət başladı, əsrin iqtisadi, siyasi və ideoloji strukturlarının əsasını təşkil etdi. Son mərhələ informasiya və texnologiya əsrində siyasi, mədəni və iqtisadi sistemlərin hakim olduğu yeni dövr idi. Əsrlər boyu müstəmləkəçilik dövründə Avropada sənayeləşmə geniş vüsət aldığından, istismar olunan ölkələr Avropa zavodlarını işçi qüvvəsi, xammal və kənd təsərrüfatı məhsulları ilə təmin etmək məcburiyyətində qaldılar. Bu arada istismar edilən torpaqlarda yerli dəyərlər, dini-mədəni kimliklər və təbii sərvətlər müstəmləkəçi dövlətlərin siyasəti ilə böyük ölçüdə məhv edilib.

Əslində, müstəmləkəçiliyin üç əsas səbəbi; sənayeləşən Avropa dövlətlərinin xammal və bazar axtarışı, millətçiliyin inkişaf etdiyi bir dövrdə güclü milli dövlətlər qurmaq istəyi və nəhayət, iqtisadi, siyasi və hərbi siyasət yolu ilə irqi, dini və mədəni üstünlük hissini təlqin etməsi. Beləliklə, baş verən tarixi proses, tarixdəki dağıntılarla yanaşı, bugünkü gəlir bölgüsü ədalətsizliyinin, sosial, mədəni, siyasi və iqtisadi cəhətdən inkişaf etmiş və zəif inkişaf etmiş ölkələr arasında fərqin formalaşmasının ən bariz səbəbi kimi önə çıxır.

Müstəmləkəçiliyin klassik forması İkinci Dünya müharibəsi başa çatdıqdan sonra öz məzmununu dəyişdi. Cəmiyyət humanizm ideyalarına üz tutdu, demokratikləşməyə, müvafiq olaraq dekolonizasiyaya doğru istiqamət götürdü.

Bir neçə müstəmləkə ölkə müstəqillik əldə etdi: 1945-ci ildə İndoneziya Yaponiyanın üç illik işğalından sonra öz dövlətçiliyini əldə etdi və iki il sonra Hindistan Mahatma Qandinin irəli sürdüyü *“müstəqillik uğrunda qeyri-zorakı mübarizə”* [12] taktikası sayəsində Britaniya hökmranlığından qurtulub müstəqillik əldə etdi.

1960-cı il tarixdə adətən "Afrika ili" adlanır; məhz o zaman qitədə ən çox suveren dövlət meydana çıxdı: 17 ölkə öz müstəqilliyini qazandı ki, onlar əsasən Fransanın müstəmləkəsi idi. Onların arasında Konqo, Somali, Qabon və bir çox başqaları da var idi. Elə həmin il BMT Baş Assambleyası müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında bəyannamə qəbul etdi, bu bəyannamə bütün xalqların öz müqəddəratını təyinetmə hüququnu təsdiq etdi və müstəmləkəçiliyin tezliklə kökünün kəsilməsinin zəruriliyini bəyan etdi.

## 3.Neokolonializm

İkinci Dünya müharibəsindən sonra müstəmləkələrdə bir çox milli hərəkatların müstəqillik uğrunda mübarizələrindən ibarət olan dekolonizasiya prosesindən sonra “neokolonializm” termini ilk dəfə xüsusilə də Afrika ilə bağlı geniş şəkildə istifadə olunmağa başladı [Sartre, 2001. 224 p].

Müstəqillik əldə etdikdən sonra bəzi milli liderlər və müxalifət qrupları öz ölkələrinin keçmiş müstəmləkəçi dövlətlər və digər inkişaf etmiş dövlətlər tərəfindən həyata keçirilən yeni müstəmləkəçilik formasına məruz qaldığını iddia etməyə başladılar. 1957-ci ildə müstəqil Qana Respublikasının başçısı olmuş Kvame Nkrumah, sonradan neokolonializmin klassik tərifinə çevriləcək hadisənin ilk tənqidçisi idi. Bu izahat terminini istifadə edən ilk kitablardan biri olan “Neokolonialism as the Last Stage of Imperialism”də (1965) irəli sürülüb.[Nkrumah, 1965]

Nkrumah deyir ki, “imperializmin əsas aləti olan müstəmləkəçilik əvəzinə bu gün bizdə neokolonializm var. Neokolonializmin nəticəsidir ki, xarici kapital dünyanın az inkişaf etmiş hissələrini inkişaf etdirməkdənsə, istismar etmək üçün istifadə olunur. Neokolonializm şəraitində sərmayə dünyanın

zəngin və kasıb ölkələri arasında uçurumu azaltmaq əvəzinə, genişləndirir. Yeni müstəmləkəçiliyə qarşı mübarizə inkişaf etmiş ölkələrin kapitalının az inkişaf etmiş ölkələrin iqtisadiyyatında iştirakını istisna etməkdən ibarət deyil. O, inkişaf etmiş ölkələrin daha az inkişaf etmiş ölkələrini məhv etmək üçün istifadə edilən maliyyə qüvvələrinə müqavimət göstərmək məqsədi daşıyır" [Nkrumah, 1965. p.26].

"Neokolonializm" termini Afrika Birliyi Təşkilatı ölkələrinin xarici siyasətinin təsviri kimi (onun ideoloqu K.Nkrumah idi), həmçinin Bandunq Konfransından (Asiya-Afrika Konfransı, 1955) sonra geniş şəkildə istifadə olunmağa başladı, burada Qoşulmama Hərəkatı konsepsiyası da təqdim edildi. Formal tərif 1960-1961-ci illərdə Fransız İcmasının himayəsi altında müstəqil dövlətlər birliyinin yaradılmasının neokolonializm adlandırıldığı Afrika Millətləri Konfransının nəticəsi olaraq verilmişdir.

Beləliklə, neokolonializm iqtisadi bərabərsizliyə əsaslanan keçmiş müstəmləkələrin metropol ölkələr tərəfindən istismarının davamıdır. Neokolonializm dövründə müstəmləkəçilik dövründə olduğu kimi, mədəni və linqvistik ekspansiya həyata keçirilir, keçmiş müstəmləkə ilə metropol arasında qeyri-bərabər iqtisadi qarşılıqlı əlaqə və qeyri-bərabər hərbi-siyasi əlaqələr qurulur.

Biz hal-hazırda postkolonial deyil, neokolonial dövrdə yaşayırıq. ABŞ-ın Körfəzdə və Afrikada hərbi müdaxiləsi; Karib dənizi və Latın Amerikasında struktur asılılığı; Cənubi Afrikada davam edən irqi təzyiq və fraksiya qarşıdurması, Asiya, Sakit Okean və Yaxın Şərq; transmilli şirkətlər və informasiya sənayeləri tərəfindən həyata keçirilən qlobal hegemonluqlar; iqtisadi bölünmələri gücləndirən güzəştli müqavilələr və ticarət blokları; keçmiş imperiya gücləri tərəfindən üstüörtülü şəkildə dəstəklənən müxtəlif daxili mübarizələr; geniş yayılmış korrupsiya, qondarma "Üçüncü Dünya"; artan etnik zorakılıq: bunların hamısı Fanonun müstəmləkəçiliyin siyasi müstəqillik elanı və ya simvolik olaraq sonuncu müstəmləkədə Avropa bayrağının endirilməsi ilə sona çatmayacağına dair fikrinin arzuolunmaz xatırlanmasına imkan verir. Fanonun müstəmləkəçiliyin təsirləri haqqında araşdırmasında dediyi kimi, ("Yerin bədbəxtləri" 1963), *"İmperator güclər tərəfindən heyvan səviyyəsinə endirilmiş bu dünyanı humanistləşdirmək üçün əsrlər lazım olacaq"* [Фанон, 1963. c.100].

Yeni bir imperialist sitemin əvvəlkini yıxaraq ortya çıxmasında milli azadlıq hərəkatları mühüm rol oynadı. I Dünya müharibəsində imperialist güclərin zəifləməsi prosesi II Dünya müharibəsindən sonra daha da sürətləndi. Avropalı imperialist güc mərkəzlərinin yeritdiyi siyasət 1945-ci ildən sonra atıq mümükünsüz idi, baxmayaraq ki, onlar bu həqiqəti qəbul etmək istəmirdilər. Əvvəlki sistem üç səbəbə görə çökmüşdü. Koloniyalaşdırılmış xalqlar sistemə qarşı mübarizə aparırdılar və bu

mübarizəni Sovet İttifaqı, Çin, Kuba dəstəkləyirdi; müharibədən tükənmiş vəziyyətdə çıxan Avropa güc mərkəzləri bu mübarizələrə artıq tab gətirə bilmirdilər; digər super güc olan ABŞ bu sistemə təzyiq göstərirdi. Yenə də yeni yaranmış sistem əvvəlki sistemin daha həssas və dolayı davamı idi.

Asiya və Afrika ölkələrinin müstəmləkə asılılığından azad edilməsi nəticəsində bir sıra maneələr aradan qalxdı. Bununla belə, bu ölkələr bir qlobal metropoliya yaradan keçmiş ağalarının istismar obyekti olaraq qaldılar. Dünya müstəmləkə sistemi Sovet İttifaqının köməyi sayəsində məhv edildi. Lakin Sovet İttifaqının ikinci fövqəldövlət kimi mövcudluğu dayandırıldı və Qərb sivilizasiyasına xas olan ekspansiya arzusu davam etdi. Qərb yeni şəraitdə qlobal neokolonializm sistemi yaratmağa başladı. Onun formalaşma vasitəsi qlobal müharibədir. Əgər XX əsrdə dünya müharibələri var idisə, XXI əsrdə onları qlobal müharibə əvəz etdi. Qərb müharibə yoluna qədəm qoyub, Yuqoslaviya, Əfqanıstan, İraq, Liviya, Suriyaya hücum edib və ideoloji cəhətdən yeni müharibələr hazırlayır. Ukraynadakı faciəvi hadisələr də qlobal neokolonializmin yaranması ssenarisinə uyğundur. XX əsr təkcə müstəmləkəçiliyin sonu deyil, həm də neokolonializmin başlanğıcı oldu. Sonuncu, 60-cı illərin ortalarında dünya müstəmləkə sisteminin dağılmasından dərhal sonra başladı. XX əsr Qlobal neokolonializm qloballaşmanın müasir istiqaməti və qlobal imperializm praktikasıdır. İmperializmi qlobalizmə çevirir. Bir kollektiv (korporativ) metropoldan yeni şəkildə idarə olunan vahid qlobal imperiya yaradılır. Bu, artıq paytaxt (müstəmləkəçilərin gəldiyi şəhər) deyil, dövlət və ya hətta dövlətlər toplusudur. ABŞ qlobal imperiyanın "paytaxtı" sayıla bilər; dünyanın qalan hissəsi bir qlobal neokoloniyaya çevrilir. Qlobal neokolonializmin əsas prinsipi "bir metropoliya, bir koloniya"dır.

## 4.Postkolonializm

Klassik müstəmləkəçilik kapitalizmdən ayrılmazdır və kapitalizmin imperializmə çevrilməsində halqa hesab oluna bilər. XIX əsrin sonlarında müstəmləkəçilik yolu ilə inhisarçı kapitalizmə çatdı. XX əsrin sonunda kapitalizm qlobalizmə çevrildi və qlobal neokolonializm ideologiyasını yaratdı. 1980-ci illərdə humanitar elmlərin ayrıca bir fənlərarası sahəsi - postkolonial tədqiqatlar formalaşdı.

Edvard Səidin "*Orientalizm*" [Said, 1978] əsəri postkolonial tədqiqatların başlanğıc nöqtəsi hesab olunur. Onun əhəmiyyəti diqqəti müstəmləkəçinin müstəmləkəyə təsirindən və sonuncunun müqavimət göstərmək cəhdlərindən, müstəmləkəçinin müstəmləkəçilik siyasətindən və müstəmləkəçilik obyektindən asılılığına cəlb etməkdədir. Bu, təkcə konkret dövlətlər haqqında deyil, bu gün də əsas element olaraq qalan Avropa imperiyalarının yaratdığı sistem haqqında idi. Akademik müzakirələr beynəlxalq ictimaiyyətin normalarının formalaşmasına Avropa irsinin yenidən baxılması məsələlərini

əhatə etməyə başladı. Alimlər Avropa düşüncəsi və maarifçiliyinin bəşəriyyət tarixinə verdiyi töhfənin əhəmiyyətini inkar etmədən bu irsin daha az doqmatik və universal şərhlərə imkan verəcək mümkün şərhləri haqqında danışmağa başladılar. Məsələn, postkolonial yanaşmanın məşhur nəzəriyyəçisi Dipeş Çakrabarti qeyd edir ki, ümumbəşəri olduğunu iddia edən hər hansı bir Avropa ideyasını nəzərdən keçirərkən nə zamandan, nə də onun yaranmasının tarixi və intellektual ənənələrindən imtina edə bilmərik. Və belə bir təftiş artıq bu fikirlərin universallığına dair şübhələrə səbəb olur [Chakrabarty, 2000. 336 p].

Avropa tarixinin dünya tarixi kimi qəbul edilib-edilməməsi ilə bağlı mübahisələr yarandı. Üstəlik, əsas mövzulardan biri siyasi proseslərə avromərkəzçi baxışın aradan qaldırılması idi. Postkolonial yanaşmanın spesifikliyi metropoliyanın müstəmləkə üçün öz normalarını qeyd-şərtsiz diktə etdiyini güman edən müstəmləkə məntiqinin rədd edilməsi və hegemonla subaltern arasında qarşılıqlı əlaqəyə xüsusi diqqət yetirilməsidir. "Şərti müstəmləkəçi" ilə "şərti müstəmləkə"nin hərəkətlərinin bir-biri ilə əlaqəli olduğu vurğulanır. Avropa intellektual düşüncəsinin əvvəlki nailiyyətlərindən əl çəkmədən postkolonial yanaşma həm müasir Avropa İttifaqının özünün, həm də onun şərti "koloniyalarının" formalaşması prosesini yenidən düşünməyə kömək edir [Onar & Nicolaïdis, 2013. p.283-303].

Beynəlxalq münasibətlər tarixinə postkolonial baxış mövcud avromərkəzçilik sistemdə başqa cəhətləri görməyə imkan verir, digər tərəfdən, aktorların mürəkkəb qarşılıqlı asılılığını təhlil etmək üçün yeni imkanlar yaradır. Ədəbiyyat, tarix, siyasət, coğrafiya, təsviri sənət və s.-dən fərqli olan bu tədqiqat sahəsi üçün birləşdirici prinsip, bir tərəfdən Avropa postmodern fəlsəfəsinin ideyalarına əsaslanan nəzəri prinsiplərdir. Digər tərəfdən, müstəmləkəsizləşdirmə və Qərb hökmranlığının tənqidi fonunda formalaşan postkolonial tədqiqatlar milli tarixlərdə avromərkəzçiliyə qalib gəlməyə çağırış və müstəmləkəçilik irsini yenidən nəzərdən keçirmək məqsədi ilə birləşir.

Hal-hazırda beynəlxalq münasibətlər elmində bu mövzuya marağın əhəmiyyətli dərəcədə artması müşahidə olunur ki, bu da qeyd edildiyi kimi, imperiya təcrübəsini anlamaqda və müstəmləkə imperiyalarının tarixinə dair məsələləri öyrənməkdə "böyük nəzəriyyələrin" olmaması ilə əlaqədardır.

Postkolonial nəzəriyyə və ya postkolonializm müstəmləkəçiliyin mədəni irsini anlamağa çalışan intellektual diskursdur. Nəzəriyyənin mərkəzi F.Fanonun, E.Səidin, H.Bhabhanın, Ç.Spivakın, R.Quanın, D.Çakrabartinin artıq klassik əsərləridir ki, onların əsasında 1980-ci illərdən başlayaraq postkolonial tədqiqatlar formalaşdı. Mahiyyət etibarı ilə Qərblə Şərq arasında münasibətlərin bütün tarixi onların səlahiyyətində idi; baxış bucağına həm

keçmişin, həm də indinin problemləri - müstəmləkə, post-müstəmləkə daxil idi. Bu məqalədə məsələni tam əhatə etmiş kimi görünmədən, indiki dövrdə beynəlxalq münasibətlər diskursunda postkolonial tədqiqatların inkişafının ümumi tendensiyalarını əks etdirmək istərdim.

Bu nəzəriyyə ümumbəşəri həqiqətlərin mövcudluğunun mümkünlüyünü inkar edən, reallığın linqvistik konsepsiyasını və bütün biliklərin qaçılmaz nisbiliyini dərk edən, marksizmin təsiri altında yaranmış Avropa postmodern fəlsəfəsinin ideyalarına əsaslanır [Голубкина, 2016. № 1-2].

Postkolonializm postkolonial məkanda “Mərkəz” və “Periferiya” anlayışlarının qorunub saxlayaraq, mədəni imperializmin problemlərini və Qərb mədəniyyətinin hökmranlığını öyrənir. Nəzəriyyənin əsasını müstəmləkəçiliklə müasirlik arasındakı əlaqə təşkil edir. Müasirlik “başqasını”, həmişə tərifə görə “geridə qalmış”ı, həmişə yetişmək mövqeyində olanı yaradır. Postkolonial nəzəriyyə məzlumların öz aşağı statuslarını qəbul etdikləri və daim özlərini “sivil” dünya ilə müqayisə etdikləri bir tabeçilik sistemini araşdırır. Postkolonial nəzəriyyə məzlumların öz aşağı statuslarını qəbul etdikləri və daim özlərini “sivil” dünya ilə müqayisə etdikləri bir tabeçilik sistemini araşdırır. Yerli reallıqlara uyğun həll yollarının tapılması ehtimalı bu halda arxa plana keçir. Postkolonial nəzəriyyəçilər də müstəmləkə subyektinin ikili, “parçalanmış” şüurundan yazırlar. Bu kontekstdə mədəni kimlik problemi postkolonial tədqiqatlarda mühüm məsələyə çevrilir. Mədəni araşdırmalara və identifikasiyaya vurğu ilə postkolonial nəzəriyyə ümumilikdə tarixi tədqiqatlara və xüsusən də tarixi antropologiyaya böyük təsir göstərmişdir.

Postkolonial tədqiqatlar çərçivəsində ayrıca bir istiqamət - subaltern tədqiqatlar formalaşmışdır. Subaltern sözü tez-tez rus dilinə “угнетенные”, Azərbaycan dilinə "məzlum", türk dilinə isə “madun” kimi tərcümə olunur, lakin bir çox tədqiqatçılar bu anlayışı tərcüməsiz qoyurlar, çünki onun xüsusi bir mənası var: səssizlik, öz maraqlarını, tələblərini ifadə edə bilməmək və hətta varlığını elan etmək. "Subaltern" termini ilk dəfə italyan filosofu Antonio Gramşi tərəfindən istifadə edilmişdir, o, siyasi səsi olmayan marginal qrupların tabe mövqeyinə istinad etmişdir. Sosioloq M.Simonun fikrincə, hərbi leksikondan olan bu termin (“mövqe və manevr müharibəsi” ilə birlikdə) Qramşçinin hegemonluğa qarşı mübarizəyə çağırdığı metaforaların militarist mahiyyətini əks etdirir.

Hind mənşəli tarixçi Ranajit Guha isə bu terminin tətbiqinə öz töhfəsini verdi. O, qeyd etdi ki, müstəmləkələrin əhalisinin əhəmiyyətli hissəsi müstəmləkəçilik sistemindən kənarda qalıb. Siyasi hüquqlardan və müstəmləkə sisteminə təsirdən məhrum olan paralel cəmiyyət formalaşdırdılar. R.Quha əhalinin bu təbəqəsini Cənubi İtaliyanın yoxsul

kəndlilərini “subalternlər” adlandıran italyan marksist Antonio Qramşçidən götürdüyü “subalternlər” termini ilə təyin etmişdir [Guha, 1982, vol.1, p.1-8].

Hind-amerikalı alim Gayatri Chakravorty Spivak tərəfindən məşhurlaşdırıldığı ədəbi tədqiqatlarda subalternlərin öyrənilməsi də geniş yayılmışdır. Onun “Məzlum danışa bilərmi?” essesi postkolonial nəzəriyyənin əsas mətnlərindən birinə çevrildi. Bu əsərdə o, iddia edir ki, tabeçilərin öz emosiyalarını və ehtiyaclarını ifadə etmək üçün heç bir vasitələri yoxdur və onların bu cəhdləri qüdrət və bilik sahibi olanlar tərəfindən yanlış şərh olunur [Спивак, 2001. с.649-670]. Bu tezis dilin təkcə əsas ünsiyyət vasitəsi kimi deyil, həm də ayrı-ayrı icmaları təmsil etmək vasitəsi kimi əhəmiyyətini nümayiş etdirir. Tarixi tədqiqatlarda postkolonializmin roluna qayıtmazdan əvvəl onun xüsusiyyətlərinə diqqət yetirməyə dəyər. Daha əvvəl qeyd edildiyi kimi, postkolonial alimlər digərini təsvir edən dilə çox həssasdırlar. Onlar daim suallar verirlər ki, azad etmək üçün hansı dildən istifadə edirik? Fatehlərin dilindən təkrar-təkrar istifadə edirikmi? Subalternlərin təcrübəsinin qlobal səviyyədə və ya ən azı milli dövlət kontekstində eşidilməsi üçün bu təcrübə qavranılmalı, ümumiləşdirilməli və ifadə edilməlidir [Морозов В.]. Ancaq bunu, bir qayda olaraq, avropasayağı təhsil almış ziyalılar dilə gətirir. Buna görə də postkolonial tədqiqatçılar kimin, nə üçün və kimin adından danışdığına xüsusi diqqət yetirirlər. Bəzən “zalımlar” təkcə “məzlumlar” haqqında deyil, onlar üçün də danışırlar.

## ƏDƏBİYYAT

1. Бжезинский, З. (2012). *Стратегический взгляд: Америка и глобальный кризис.* Москва, 250 стр. ISBN: 9780465029549
2. Гладкий, В. Д. *Древний мир.* Том 1. 510 с.
3. Фанон, Ф. (1963). *Черная кожа, белые маски.* 220 с. ISBN: 9780802143006
4. Chakrabarty, D. (2000). *Provincializing Europe: Postcolonial Thought and Historical Difference.* Princeton University Press. XIII, Princeton, Oxford, UK, 336 p. ISBN: 9780691130019
5. Sartre, Jean-Paul (2001). *Colonialism and Neocolonialism.* Routledge, Psychology Press, 224 p. ISBN: 9780415378468
6. Onar, N. F., & Nicolaïdis, K. (2013). The Decentring Agenda: Europe as a post-colonial power. *Cooperation and Conflict, 48*(2), 283-303. https://doi.org/10.1177/0010836713485384
7. Голубкина, С. Е. (2016). О некоторых тенденциях развития постколониальных исследований. *Вестник Минского университета, № 1-2.* https://vestnik.mininuniver.ru/jour/article/view/174/175

**8.** Guha, R. (1982). *On Some Aspects of the Historiography of Colonial India.* Subaltern Studies, vol. 1, Delhi, Oxford University Press, 335p.
**9.** Guha, R. (1995). *Subaltern Studies: Writings on South Asian History and Society*. Oxford University Press, Vol. 1, 241 p. ISBN: 978-0195634433
**10.** Спивак, Г. Ч. (2001). *Могут ли угнетенные говорить? // Введение в гендерные исследования.* (Ч. II: Хрестоматия, Под ред. Жеребкина, С. В.). Харьков: ХЦГИ, СПб. с. 649-670. ISBN 5-89329-422-X
**11.** Морозов В. *Subaltern Studies.* Четвертая лекция курса «(Пост)колониальные исследования» в рамках проекта «Ташкент-Тбилиси». https://syg.ma/@leisan-garipova/viachieslav-morozov-subaltern-studies.
**12.** https://trends.rbc.ru/trends/social/63298c819a79471e112aa2f6
**13.** Nkrumah, K. (1965). *Neo-Colonialism, the Last Stage of imperialism*. London. ISBN: 9780901787231
**14.** Said, Edward W. (1978). *Orientalism.* New York. 368 pp. ISBN: 9780394740676
**15.** Ashcroft, B., Griffiths, G., & Tiffin, H. (1989). *The Empire Writes Back: Theory and practice in post-colonial literatures.* London and New York, 246 pp. ISBN: 9780203426081

## Постколониализм в дискурсе международных отношений

**Наргиз Нагиева***

**Абстракт.** Обращение к истории всегда было важным инструментом понимания международных отношений, и эта тенденция остается актуальной и сегодня. Однако если раньше исследователи в основном фокусировались на отдельных событиях и их возможных интерпретациях, то сейчас основное внимание сосредоточено на определении исторических особенностей систем и отражении этого наследия в современных международных отношениях. Именно поэтому особенно важным стал постколониальный подход, ориентированный на постепенную эволюцию колониальных отношений в современную систему международных отношений, постмодернизм используются при объяснении понятия постколониализм. В этих концепциях важное

* Доктор философии по политическим наукам, доцент,
Доцент Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: nargiz_nagiyeva@mail.ru
https://orcid.org/0009-0001-1205-5864

**Цитировать статью:** Нагиева, Н. [2024]. Постколониализм в дискурсе международных отношений. *Журнал «Metafizika», 7(2),* c.44-58.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.44-58

**История статьи:**
*Статья поступила в редакцию: 12.02.2024*
*Отправлена на доработку: 10.03.2024*
*Принята для печати: 29.04.2024*

место занимают термины колониализм и постколониализм, которые как бы являются продолжением друг друга, несмотря на то, что противостоят друг другу. В статье дается объяснение некоторым из этих концепций. Глядя на развитие и теоретическую историю концепции постколониализма, можно прийти к выводу, что это понятие впервые было использовано Эдвардом Саидом в его работе под названием «Ориентализм». В работе Эдварда Саида «Ориентализм» (1978), [Said, 1978] хотя используется множество производных терминов от понятий колониализм и империализм, слово постколониализм в данной работе не встречается ни разу. Не менее важным, чем исследования Эдварда Саида по консолидации постколониализма как концепции, являются «Subaltern Studies», впервые разработанные индийскими историками-марксистами в 1982 году. Таким образом, хотя постколониализм еще не достиг своей окончательной формы с точки зрения именования, благодаря вышедшей в 1989 году книге «The Empire Writes Back» [Ashcroft, Griffiths, & Tiffin, 1989], сегодня этот термин используются в современных научных кругах.

**Ключевые слова:** колониализм, неоколониализм, постколониализм, субалтерн, колония

## Postcolonialism in the Discourse of International Relations

**Nargiz Naghiyeva***

**Abstract.** Turning to history has always been an important tool for understanding international relations, and this trend remains relevant today. However, if earlier researchers mainly focused on individual events and their possible interpretations, now the main attention is focused on determining the historical characteristics of systems and reflecting this legacy in modern international relations. That is why the postcolonial approach, focused on the gradual evolution of colonial relations into the modern system of international relations, has become especially important; postmodernism is used to explain the concept of postcolonialism. In these concepts, an important place is occupied by the terms colonialism and postcolonialism, which seem to be a continuation of each other, despite the fact that they

* Doctor of Philosophy in Political Science, associate prof,
Associate professor of Baku State University; Baku, Azerbaijan
E-mail: nargiz_nagiyeva@mail.ru
https://orcid.org/0009-0001-1205-5864

**To cite this article:** Naghiyeva, N. [2024]. Postcolonialism in the discourse of international relations. *"Metafizika" journal, 7(2),* pp.44-58.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.44-58

**Article history:**
*Received: 12.02.2024*
*Accepted: 29.04.2024*

oppose each other. This article explains some of these concepts. Looking at the development and theoretical history of the concept of postcolonialism, can be concluded that the concept was first used by Edward Said in his entitled “Orientalism”. In Edward Said's “Orientalism” (1978) [Said, 1978], although many derivative terms from the concepts of colonialism and imperialism are used, the word postcolonialism does not appear even once this work. No less important than Edward Said's research into the consolidation of postcolonialism as a concept is Subaltern Studies, first developed by Indian Marxist historians in 1982. Thus, although postcolonialism has not yet reached its final form in terms of naming, to the book "The Empire Writes Back" [Ashcroft, Griffiths, & Tiffin, 1989] published in 1989, today both the term and the theoretical concept are used in modern scientific circles.

**Keywords:** colonialism, neocolonialism, post-colonialism, subaltern, colony

## REFERENCES

1. Brzezinski, Z. (2012). *Strategic Vision: America and the Crisis of Global Power*. Moscow, 250 p. ISBN: 9780465029549 (in Russian)
2. Gladky, M. V. *Ancient world.* (Volume 1). 510 p. (in Russian)
3. Fanon, F. (1963). *Black Skin, White Masks.* 220 p. ISBN: 9780802143006 (in Russian)
4. Chakrabarty, D. (2000). *Provincializing Europe: Postcolonial Thought and Historical Difference.* Princeton University Press. XIII, Princeton, Oxford, UK, 336 p. ISBN: 9780691130019 (in English)
5. Sartre, Jean-Paul (2001). *Colonialism and Neocolonialism*. Routledge, Psychology Press, 224 p. ISBN: 9780415378468 (in English)
6. Onar, N. F., & Nicolaïdis, K. (2013). The Decentring Agenda: Europe as a post-colonial power. *Cooperation and Conflict, 48*(2), 283-303. https://doi.org/10.1177/0010836713485384 (in English)
7. Golubkina, S. E. (2016). On some trends in the development of postcolonial studies. *Bulletin of Minsk University, No. 1-2.* https://vestnik.mininuniver.ru/jour/article/view/174/175 (in Russian)
8. Guha, R. (1982). *On Some Aspects of the Historiography of Colonial India.* Subaltern Studies, vol. 1, Delhi, Oxford University Press, 335p. (in English)
9. Guha, R. (1995). *Subaltern Studies: Writings on South Asian History and Society*. Oxford University Press, Vol. 1, 241 p. ISBN: 978-0195634433 (in English)

**10.** Spivak, G. C. (2001). *Can the oppressed speak? // Introduction to gender studies.* (Part II: Reader, Edited by Zherebkin, S. V.). Kharkov: KhTSGI, St. Petersburg. With. 649-670. ISBN 5-89329-422-X (in Russian)

**11.** Morozov, V. *Subaltern Studies.* Fourth lecture of the course "(Post)Colonial Studies" within the framework of the Tashkent-Tbilisi project. https://syg.ma/@leisan-garipova/viachieslav-morozov-subaltern-studies. (in Russian)

**12.** https://trends.rbc.ru/trends/social/63298c819a79471e112aa2f6 (in Russian)

**13.** Nkrumah, K. (1965). *Neo-Colonialism, the Last Stage of imperialism*. London. ISBN: 9780901787231 (in English)

**14.** Said, Edward W. (1978). *Orientalism.* New York. 368 pp. ISBN: 9780394740676 (in English)

**15.** Ashcroft, B., Griffiths, G., & Tiffin, H. (1989). *The Empire Writes Back: Theory and practice in post-colonial literatures.* London and New York, 246 pp. ISBN: 9780203426081 (in English)